# Şənbə iməciliyində





Qəbələ şəhərimiz hər gün, hər həftə mötəbər qonaqları qarşılayır və yola salır. Hazırda şəhərimizin sorağı nəinki ölkəmizin digər bölgələrindən, hətta xarici ölkələrdən gəlir. Ona görə də şəhərimiz daim təmiz və səliqəli görünməlidir.

Rayon icra hakimiyyəti şəhərimizin gözəl və səliqəli görünüşünü saxlamaq üçün idarə müəssisə və təşkilatların kollektivlərinin köməkliyi ilə iməciliklər keçirir. Bu iməciliklərdə küçə və meydanlarda, park və xiyabanlarda təmizlik, səliqə-sahman yaradılır.

Ekoloji mühitin sağlamlaşdırılması məqsədi ilə martın 14-də rayonda keçirilmiş növbəti iməcilikdə idarə və təşkilatların, təhsil və səhiyyə müəssisələrinin kollektivləri yaxından iştirak etmişlər.

Üç yüz nəfərin qoşulduğu aksiya zamanı Qəbələ şəhərinin İsmayılbəy Qutqaşınlı və Sahil küçələrinin kənarlarına 700 ədəd müxtəlif növ ağaclar əkilmişdir.

Bundan əlavə, yaşıllıq və abadlıq işləri çərçivəsində yol kənarlarındakı qurumuş ağaclar yenisi ilə əvəz edilmiş, minlərlə ağaca qulluq göstərilmişdir.

Ağacəkmə kompaniyasının mövsümün sonunadək davam etdirilməsi nəzərdə tutulmuşdur.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Novruz bayramı ərəfəsində bir sıra uşaq evlərinə baş çəkib

Novruz bayramı ərəfəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakı şəhərində Şağan qəsəbəsindəki 3 nömrəli internat evində, Nizami rayonundakı Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzində, həmin rayonun 1 nömrəli uşaq evində, Nərimanov rayonunda yerləşən uşaq psixonevroloji mərkəzində, Nəsimi rayonunda yerləşən 1 nömrəli körpələr evində olmuşdur.

Leyla Əliyeva 3 nömrəli internat evinə gələrkən uşaqların əl işlərindən ibarət sərgi ilə tanış olmuş, burada yaşayan 168 nəfər uşağın təlim-tərbiyəsi ilə maraqlanmış və bildirmişdir ki, internat evi Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində yenidən qurulmuşdur.

Heydər Əliyev Fondunun vitse-prezidenti digər uşaq evlərində olarkən uşaqlarla söhbət etmiş, onların arzu və təkliflərini dinləmiş, bayram şənliklərində iştirak etmiş, sonda isə sakinlərə fondun bayram hədiyyələri təqdim olunmuşdur.

**"Qəbələ".**

# Novruz bayramı

Şərq xalqlarının özünəməxsus ulu qaynaqlardan süzülüb gəlmiş, zaman-zaman daha da təravətlənmiş təbiətlə bağlı bayramlarından biri də Novruzdur.

Novruz bayramı şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə keçirilir. Bir çox xalqlar Novruzu yazın gəlişi kimi qəbul etmiş, təbiətin canlanması ilə bağlamışlar.

Qədim dövrlərdən başlayaraq Azərbaycan, Əfqanıstan, İran, Tacikistan, Özbəkistan və digər Şərq ölkələrində baharın gəlişi şənliklərlə qarşılanıb.

Xalqın bu bayramla əlaqədar keçirdiyi mərasimlər heç bir dini ehkamla bağlı deyildir.

Orta əsr müəlliflərindən Əbu Reyhan Biruni, Nizamül Mülk, Nizami Gəncəvi öz əsərlərində Novruz bayramının yazın gəlişi ilə əlaqədar olduğunu yazırdılar.

Novruz bayramını qeyd edən hər bir xalq bu bayramla bağli etnik, yerli və milli xüsusiyyətlərinə uyğun özünəməxsus mövsüm və mərasim nəğmələri yaratmışdılar.

2009-cu il 30 sentyabrda Novruz YUNESKO tərəfindən qeyri-maddi irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i "Beynəlxalq Novruz Günü" elan edilmişdir.

Azərbaycanda adətə görə Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, təbiətin canlanmasının, əkinçiliyin rəmzidir. Azərbaycanlılar səməni göyərtməklə növbəti təsərrüfat ilinə bərəkət, bolluq arzulamış, bayrama dörd həftə qalmış hər çərşənbə axşamı və bayram günü tonqal qalamaqla, nəğmələr qoşmaqla oda, atəşə, olan inamı ifadə etmişlər. Qədim insanlar erkən əkinçilik, maldarlıq, təsəvvürləri ilə bağlı rəngarəng nəğmələr, oyunlar, şerlər, lətifələr yaratmışlar. Bütün bu mərasimlər İslamdan çox-çox əvvəl mövcud olmuş qədim Şərq ənənələrinin davamıdır.

Novruz bayramında kin-kudurət unudulmalıdır. Heç kəs gərək bir-biri ilə küsülü qalmasın.

Bu əziz bayram ərəfəsində hər bir azərbaycanlıya sülh və əminamanlıq arzulayır, bu bayramı illərlə Novruz bayramına həsrət qalan torpaqlarımızda qeyd etməyi diləyirik.

**Nurlanə VEYSƏLOVA,**
**İsmayıl bəy Qutqaşınlı ev muzeyinin bələdçisi.**

# Amerikanın tanınmış musiqiçiləri Qəbələ tamaşaçıları qarşısında çıxış etmişlər





Amerika və Azərbaycan xalqları arasında qarşılıqlı anlaşmanın və dostluğun daha da inkişaf etdirilməsi məqsədilə Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyi mütəmadi olaraq ölkəmizdə mədəni-kütləvi proqramlar həyata keçirir. Bu dəfə Amerikanın "Brcak of Reality" simli kvarteti Azərbaycanda səfərdədir.

Səfər çərçivəsində musiqi qrupu martın 13-də Qəbələ Mədəniyyət Mərkəzində açıq konsert proqramı ilə çıxış etmişdir. Konsert tamaşaçılarda xoş təəssürat yaratmışdır.

Sonda Amerika Birləşmiş Ştatları ilə əlaqədar iştirakçılara suallar verilmişdir. Düzgün cavab verənlər mükafatlandırılmışlar.

**Fotolar S. Umuyevindir.**

# Güzəştli kreditlər sahibkarlığı inkişaf etdirir

Ölkədə sahibkarlığın inkişaf etdirilməsi sosia-iqtisadi inkişafın əsas amillərindən biridir. Cünki bu sahənin inkişaf etdirilmsi nəticə etibarı ilə daxili məhsulun artımına, yeni iş yerlərinin açılmasına, başlıca olaraq əhalinin sosial rifahının yüksəldilməsinə gətirib çıxarır. Ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlər, verdiyi tapşırıq və tövsiyələr də yalnız və yalnız həmin məqsədə xidmət edir. Bu istiqamətdə tarazlı inkişafın təmin edilməsi də regionların sosial-iqtisadi inkişaf proqramlarının qəbul olunmasından irəli gəlir. Çünki əvvəllər kreditləri əsasən yalnız böyük şəhərlərdə fəaliyyət göstərən sahibkarlar alırdılarsa, indi belə kreditləri regionlarda fəaliyyət göstərən sahibkarların da alması mümkün olur.

Təkcə ötən 2014-cü ili təhlil etsək bu, daha aydın nəzərə çarpar. Sahibkarlığa Kömək Milli Fondunun verdiyi məlumata görə ötən il ölkədə 5560 sahibkara 50 faiz qaytarılan vəsait olmaqla 295 milyon manat güzəştli kredit verilmişdir. Güzəştli kreditlərin 78 faizi regionlara yönəldilmişdir. Bu hesaba bölgələrdə 39 iri istehsal və emal müəssisələri fəaliyyətə başlamışdır. Cari ildə isə daha 81 müəssisənin istifadəyə verilməsi gözlənilir. Bu isə o deməkdir ki, ötən illərdə başlanmış tendensiya 2015-ci ildə də davam edəcəkdir. Həqiqətdə də son illərdə bölgələr üçün ayrılan kreditlər hesabına 19 rayonda 40 guşçuluq təsərrüfatı, 13 rayonda 20 heyvandarlıq və 8 rayonda südçülüq kompleksləri (onlardan 2-i Qəbələdədir), 6 rayonda 7 ətkəsimi və emalı müəssisəsi yaradılıb. Nəticədə son 3 ildə ölkəyə ət və ət məhsullarının idxalı böyük həcimdə azalıb.

Cari ilin ötən dövründə 842 sahibkar 27,6 milyon manat güzəştli kredit alıb. Bu kreditlərdən istifadə etmək investisiya layihələrinin reallaşdırılması hesabına 2 minə yaxın iş yeri açılması nəzərdə tutulur.

Yaxın günlərdə Yevlax rayonunda iqtisadiyyat və Sənaye Nazirliyinin Sahibkarlığa Milli Kömək Fondu tərəfİndən Aran iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlarla növbəti işgüzar görüş keçirilib. Görüşdə cari ildə də sahibkarlara qayğı və diqqət nəzərdən keçirilib. Cari ildə regionda olan sahibkarlara 1,4 milyon manat güzəştli kredit verilib, daha bir sıra tədbirlərin həyata keçitrilməsi nəzərdə tutulub. Ümumiyyətlə, indiyədək Sahibkarlığa Kömək Milli Fondu tərəfindən təkcə 19 tikinti materiallarının istehsalı müəssisələrinin yaradılmasına və müasir texnologiya ilə təchiz edilməsinə 71 milyon manata yaxın kredit verilib ki, bunun da nəticəsində 14 müəssisə fəaliyyət göstərir. Qalan müəssisələrdə iş davam edir.

Ölkədə bu proses bundan sonra da uğurla davam etdiriləcəkdir.

**Nadir ATAKİŞİYEV.**